# İlham Əliyev Avropada həmrəylik halqası yaradır

## Qərbin enerji bazarında Azərbaycan qazına tələbat gündən-günə artmaqdadır

**Avropanın enerji təminatında açar rolunu oynayan Azərbaycan həyata keçirdiyi layihələrlə bir daha etibarlı tərəfdaş olduğunu dünyaya isbatlayır. "Əsrin müqaviləsi" ilə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan neft strategiyamızı uğurla davam etdirən İlham Əliyevin qlobal layihələri Azərbaycanın gələcək nailiyyətlərinin zəmanətidir.**

Bu gün Azərbaycan Prezidentinin reallaşdırdığı qlobal layihələr Avropanın enerji təchizatında mühüm rol oynayır və bu da ölkə sərhədlərindən kənarda özü də ən yüksək səviyyələrdə etiraf olunur. Bu prosesi dəyərləndirən İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaş ölkələrin dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib. Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb. Dünyanın geosiyasi və geoiqtisadi gündəmini düzgün qiymətləndirən dövlət başçısı verdiyi sözünə, vədinə sadiqliyi ilə Azərbaycana etibarlı tərəfdaş statusunu qazandırıb.

### Avropanın Azərbaycan qazına böyük ehtiyacı var

Bu bir həqiqətdir ki, hazırda Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb. Ötən il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, Avropanın bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

Həmin sənədin imzalanma mərasimində Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen də Azərbaycanı Avropa üçün enerji sektorunda etibarlı tərəfdaş adlandırıb. Əlbəttə ki, Azərbaycanın nailiyyətlərinin bu cür qiymətləndirilməsi yüksək qürur yaradır. Həqiqətən də, real hədəf olan yerdə Azərbaycan bir çox Avropa ölkələrini neft, neft məhsulları, neft-kimya məhsulları ilə təchiz edir.

Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə Azərbaycana qaz təchizatı və ya mövcud qaz təchizatının artırılması ilə bağlı 10-dan çox Avropa ölkəsindən müraciət olunub. Təbii ki, ölkəmiz də tərəfdaşların ehtiyaclarını qarşılamaq üçün əlindən gələni əsirgəmir. Hazırda Azərbaycanın qaz təchizatının kifayət qədər şaxələndirilmiş coğrafiyası var. Bəzi ölkələr artıq Azərbaycandan elektrik enerjisi almağa başlayıblar. Lakin Avropada təbii qaza olan tələbatın artması ilə əlaqədar hazırda Azərbaycan kəmər imkanlarını genişləndirməyi planlaşdırır. Belə ki, 16 milyard kubmetr tutumu olan TANAP-ın 32 milyard kubmetrədək, 10 milyard kubmetr tutumu olan TAP-ın isə 20 milyard kubmetrədək genişləndirilməsi nəzərdə tutulur. Bu, əlbəttə ki, Avropada enerjiyə olan tələbatın artması ilə əlaqədardır.

### "Ən real və ən səmərəli həll yolu qazı Azərbaycandan idxal etməkdir"

Aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı imzalanan anlaşma memorandumu da bu proseslərin tərkib hissəsidir.

Sənədin imzalanma mərasimində çıxış edən bütün tərəflər Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi siyasəti təqdir edib səmimi fikirlərini səsləndirdilər. Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciətində də qeyd olunurdu ki, anlaşma memorandumu regiona əlavə qaz təchizatı baxımından alternativ marşrutlar üçün çərçivə təmin edəcək. Bu məsələdə Azərbaycanın mühüm rolu danılmazdır: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün



Azərbaycan tərəfindən enerji təchizatı həlledici olub. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəkləyir".

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycandan Avropaya qazın idxalından danışaraq bu marşrutun Avropa üçün önəminə diqqət çəkdi və vurğuladı ki, Mərkəzi Avropada şaxələnmə məsələsinə gəldikdə ən yaxşı, ən real və ən səmərəli həll yolu qazı Azərbaycandan idxal etməkdir: "Buna heç bir şübhəmiz yoxdur. Biz özümüzə, ən azından özümüzə düzünü deməliyik. "Həmrəylik Halqası" olmasa, Avropa maliyyələşməsi olmasa, onda Mərkəzi Avropanın, həqiqətən də, mərkəzində yerləşən bizlərin Azərbaycandan əhəmiyyətli qaz həcmini almağa heç bir imkanı olmayacaq. Bizə mütləq Türkiyə də lazım olacaq. Mərkəzi Avropanın gələcək enerji təchizatının mühüm bir hissəsini təşkil edəcək Azərbaycandan olan qaz həcminə güvənməklə üçün ümid edirik ki, onlar da gələn dəfə təmsil olunaraq razılaşmanın bir hissəsi olacaqlar".

Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman isə Azərbaycanla əməkdaşlığın önəminə toxunaraq bildirir ki, tərəflər anlaşma memorandumu imzalamaqla hər kəsə aydın siyasi mesaj göndərirlər. Bu mesaj ondan ibarətdir ki, onlar Avropaya təbii qazın idxalı üçün yeni dəhliz yaratmağa, Azərbaycanla əməkdaşlıq etməyə və qaz təchizatının ümumi şaxələnməsinə töhfə verməyə hazırdırlar. Slovakiya Azərbaycandan əlavə qaz təchizatını təmin etmək üçün regiondakı qazötürücü sistemi operatorlarının mövcud infrastrukturdan istifadə edilməsi və onun müasirləşdirilməsi çağırışını alqışlayır: "Mən bizim qazötürücü sistem operatorlarının Azərbaycandan Mərkəzi və Şərqi Avropaya yeni dəhlizin yaradılması ilə bağlı təşəbbüsünün reallaşdırılmasına və SOCAR ilə əməkdaşlığa Slovakiya İqtisadiyyat Nazirliyinin tam dəstəyini ifadə etmək istəyirəm. İnanıram ki, biz indi qaz idxalı sahəsində ölkələrimizin Azərbaycanla əməkdaşlığının yeni fəslinə start verəcəyik. Çünki Azərbaycan və SOCAR enerji təchizi üçün uzunmüddətli, etibarlı və dürüst tərəfdaşdır".

### Azərbaycan bu il Avropaya 12 milyard kubmetr qaz çatdırmağı planlaşdırır

Prezident İlham Əliyev bu sazişi dəyərləndirərkən bildirdi ki, imzalanmış anlaşma memorandumu icra olunduqdan sonra Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcək və Azərbaycan üçün daha çox Avropa ölkəsinə böyük həcmdə qaz ixrac etməyə fürsət yaradacaq.

Azərbaycanın Avropanın nəinki enerji, o cümlədən bir sıra digər sahələrdə də etibarlı tərəfdaşı olduğunu vurğulayan Prezident diqqətə çatdırdı ki, Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan "Strateji Tərəfdaşlıq haqqında" bəyannamə və ya sazişlərə imza atıb və qəbul edib. Bu o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var.

Qeyd edək ki, Azərbaycan və Avropa Komissiyası arasında 2022-ci ilin iyul ayında imzalanan "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" əsasında ölkəmiz 2027-ci ilə qədər Avropa İttifaqı bazarına qaz təchizatını iki dəfə artırmağı planlaşdırır. 2021-ci ildə bu rəqəm 8 milyard kubmetr təşkil edib, bu il isə hədəf 12 milyard kubmetrdir.

Azərbaycan Prezidenti dedi ki, həmin həcm bu il üçün planlaşdırılan 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracının təxminən yarısını təşkil edəcək. Təbii ki, Azərbaycanın qaz hasilatı və ixracı artacaq.

Bu gün Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq qazımız Rumıniyaya da çatdırılır. İlham Əliyev bir daha bəyan etdi ki, əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən ölkəmiz Macarıstana və Slovakiyaya qaz təchizatına başlamağı planlaşdırır.

### Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən cızır

İlham Əliyev gələcək layihələr və sazişlər barədə də məlumat verərək Azərbaycanın yerli qazpaylayıcı sisteminin qurulması məqsədilə Albaniya ilə danışıqlar prosesində olduğunu söylədi. Çünki "Cənub qaz dəhlizi" Albaniyanın ərazisindən keçir. Eyni zamanda Slovakiya "Həmrəylik Halqası"nın üzvü kimi yaxın vaxtlarda enerji sahəsində tərəfdaşa çevriləcək.

Dövlət başçısı bəyan etdi ki, Azərbaycan qaz təchizatının coğrafiyasını 6 ölkədən ən azı 10 ölkəyə qədər genişləndirəcək: "Mən ən azı ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq. Tərəfdaşlardan ibarət güclü komandanı yaratmaq kimi bu təşəbbüsdə Bolqarıstan Prezidenti cənab Radevin xüsusi rolunu qeyd etmək istərdim. Əminəm ki, "Həmrəylik Halqası" birgə geniş planlarımızın icrasında mühüm rol oynayacaq".

Enerji sahəsində etibarlı tərəfdaş kimi, Azərbaycanın bütün hədəflərə nail olmaq üçün bu istiqamətdə atdığı addımları davam etdirməyə birmənalı hazır olduğunu vurğulayan İlham Əliyev bildirdi ki, üç əsas enerji infrastrukturu layihəsinin uğurlu tamamlanmasından sonra Azərbaycan bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində çalışır.

Əlavə edək ki, Prezidentin də söylədiyi kimi, Azərbaycan 25 qiqavatdan artıq bərpaolunan enerjinin istehsalı məqsədilə bərpaolunan enerji sahəsində aparıcı beynəlxalq şirkətlərlə müqavilələr və anlaşma memorandumları imzalayıb. İlk külək və günəş enerjisi stansiyalarının tikintisi başlayıb. Ümumilikdə Azərbaycanda bərpaolunan enerjinin hesablanmış potensialı təxminən 200 qiqavatdır. Bu həcmə Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavat da aiddir. Əlbəttə ki, "yaşıl enerji"nin əsas ixrac istiqaməti Avropadır: "Beləliklə, biz fəal enerji diplomatiyamızı davam etdiririk. Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var. Bütün bunlardan əlavə, bizim aramızda güclü ötürmə xətləri olacaq və bu tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq".

Bolqarıstan Prezidenti Rumen Radev isə bildirdi ki, İlham Əliyev reallaşdırdığı tam müstəqil siyasətlə Azərbaycanın etibarlı ticarət tərəfdaşı olduğunu sübut edib. Onun sözlərinə görə, 10 ildən artıq müddət ərzində iki ölkə arasında imzalanan müqaviləyə əsasən, Bolqarıstan Azərbaycan tərəfindən etibarlı şəkildə enerji ilə təchiz olunur və bütün qlobal siyasi faktlara baxmayaraq, Azərbaycan müqavilənin şərtlərinə ciddi şəkildə əməl edir.

Bir sözlə, yeni anlaşma memorandumu Azərbaycanın Avropanın ən etibarlı enerji təminatçısı olduğunu bir daha isbatlayır. Eyni zamanda bu sənədin imzalanması Azərbaycanla Avropa ölkələri arasında Prezident Rumen Radevin dediyi kimi, yeni əməkdaşlıq üçün çox güclü siqnaldır. Bu, qaz təchizatı şəbəkələrinin həcmini, həmçinin qarşılıqlı əlaqəni daha da genişləndirəcək.

### Sofiyada SOCAR-ın ofisinin açılması şirkətin Avropadakı fəaliyyətinə böyük töhfə verəcək

Sonda onu da əlavə edək ki, aprelin 25-də İlham Əliyevin Bolqarıstana səfəri çərçivəsində Sofiyada SOCAR-ın ofisinin açılışı olub.

Prezidentlər - İlham Əliyev və Rumen Radevin də iştirak etdiyi mərasimdə qeyd edilib ki, bu, enerji sahəsində əməkdaşlığı sürətlə inkişaf etdirən Azərbaycan-Bolqarıstan əlaqələrini daha da gücləndirəcək.

Ümumiyyətlə, İlham Əliyevin Bolqarıstana sonuncu - 2022-ci il 30 sentyabr-1 oktyabr tarixli rəsmi səfəri və həmin səfər çərçivəsində Yunanıstan-Bolqarıstan qaz interkonnektorunun istismara verilməsi iki ölkə arasında enerji sahəsində əməkdaşlıqda tamamilə yeni səhifə açıb. Tərəflər arasında anlaşma memorandumunun imzalanması isə enerji resurslarının nəqlinin daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan təqdirəlayiq addımdır.

Əlbəttə ki, bütün bunlar SOCAR-ın Bolqarıstandakı fəaliyyətinin genişləndirilməsi zərurətini yaradır. Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyanı təsdiqləyib. SOCAR-ın Bolqarıstandakı ofisinin açılması şirkətin Avropa bazarında fəaliyyətinin daha da genişləndirilməsinə mühüm töhfə verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*